# Reklam haqqında Azərbaycan Respublikasının Qanunu (Çıxarışlar)

**Maddə 4.** Reklama dair ümumi tələblər

**Maddə 4.6.** Narkotik vasitələrin, psixotrop maddələrin, pornoqrafiyanın, tütün və tütün məmulatlarının, nikotin tərkibi olmayan elektron siqaretlərin və bu Qanunla reklamı qadağan olunan digər məhsulların reklamına yol verilmir.

**Maddə 13.** Sponsor və sponsor reklamı

**Maddə 13.4.** Bu Qanunla reklamı qadağan edilmiş malların istehsalı və (və ya) satışı ilə məşğul olan şəxslər sponsor ola bilməz.

**Maddə 15.** Əmtəə satışını stimullaşdıran tədbirlər haqqında reklam

**Maddə 15.3.** Əmtəə satışını stimullaşdıran tədbirlərdə müəyyən əmtəəni satın alana hədiyyə qismində tündlüyü 5 faizdən yuxarı olan alkoqollu içkilər, tütün və tütün məmulatları təklif oluna bilməz.

**Maddə 15.4.** Tündlüyü 5 faizdən yuxarı olan alkoqollu içkiləri, tütün və tütün məmulatlarını alanlara hədiyyə qismində başqa əmtəələrin təklifi qadağandır.

**Maddə 28**. Tütün, tütün məmulatları və onlara aid ləvazimatların reklamı

Tütün, tütün məmulatlarının və onların ləvazimatlarının, o cümlədən tənbəki çubuqlarının, qəlyanların, siqaret kağızlarının, alışqanlarının reklamı qadağandır.

**İlham Əliyev**

**Azərbaycan Respublikasının Prezidenti**

**Bakı şəhəri, 15 may 2015-ci il.**

"Reklam haqqında" Azərbaycan Respublikasının Qanununda 30 dekabr 2025-ci il tarixli, № 338-VIIQD dəyişiklik edilməsi barədə AR Prezidentin imzaladığı Qanun ilə təsdiqlənmiş əlavə və dəyişikliklər daxil edilib https://president.az/az/articles/view/71395